# Azərbaycan üçün böyük geosiyasi və geoiqtisadi əhəmiyyət daşıyan layihə

**Azərbaycanın təşəbbüsü ilə reallaşan Cənub Qaz Dəhlizi və onun xüsusi elementi olan Trans–Anadolu qaz boru kəməri (TANAP) yeni bir mərhələyə qədəm qoyub. TANAP artıq Avropa sərhədinədək uzanıb. Bu isə o deməkdir ki, Azərbaycan təbii qazı yalnız Türkiyəyə deyil, Avropa bazarına nəql etmək imkanlarına nail olub. Trans-Adriatik qaz boru kəməri layihəsinin (TAP) icrasının 90 faiz yerinə yetirilməsi də ondan xəbər verir ki, növbəti il Azərbaycan qazının Avropa bazarına çıxarılması praktik olaraq reallaşacaq.**



TANAP Azərbaycan, bütövlükdə region üçün mühüm layihələrdəndir. Azərbaycan TANAP vasitəsilə Türkiyə bazarına əlavə olaraq 6 milyard kubmetr qaz göndərmək imkanı əldə edib. Eyni zamanda, icrası başa çatmaqda olan TAP kəməri vasitəsilə Azərbaycan Avropa bazarına ilkin mərhələdə 10 milyard kubmetr, ikinci mərhələdə 20 milyard kubmetr qaz nəql edəcək. Gələcəkdə Avropa və Türkiyə bazarlarına çıxarılacaq Azərbaycan qazının həcmi isə 31 milyard kubmetri ötəcək. Cənub Qaz Dəhlizi, eyni zamanda, TANAP Azərbaycanın strateji mövqeyini daha da möhkəmləndirməsi baxımından geosiyasi və geoiqtisadi əhəmiyyət daşıyır.

Azərbaycanın regiondakı rolunu və mövqeyini göstərən TANAP layihəsi dövlət gəlirlərimizin artmasına da birbaşa təsir göstərəcək. Ümumiyyətlə, Cənub Qaz Dəhlizi Azərbaycana 100 milyard dollardan çox gəlir gətirəcək. Bu isə ölkəmizin dövlət gəlirlərinin yeni bir mərhələdə təbii qaz satışından əldə edilən valyuta hesabına formalaşması anlamına gəlir. Bu, praktik olaraq ölkəyə daxil olan valyutanın həcminin artmasına imkan verəcək.

Bu layihə, eyni zamanda, Türkiyə və Gürcüstan üçün də çox vacibdir. Gürcüstan tranzit ölkədir. Layihənin reallaşması nəticəsində Türkiyə qaz idxalından asılılığını aradan qaldıracaq. Azərbaycan Türkiyəyə qaz ixracına görə ikinci ən böyük ölkəyə çevrilmək niyyətindədir. Bu, Azərbaycan, Gürcüstan və Türkiyə strateji əməkdaşlığının daha da güclənməsinə təkan verir.

TANAP Türkiyənin, Cənub Qaz Dəhlizi də Türkiyə ilə yanaşı, Avropanın enerji təhlükəsizliyinin təminatına töhfə verən layihədir. Cənub Qaz Dəhlizi Avropa üçün yeni alternativ mənbədir. Bu, təbii ki, Avropanın enerji xəritəsinin yenidən işlənməsində xüsusi paya malikdir.

TANAP daxil olmaqla Cənub Qaz Dəhlizinin reallaşması birbaşa Azərbaycan Prezidentinin siyasi iradəsi nəticəsində baş verib. Dövlət başçısının qeyd etdiyi kimi, Cənub Qaz Dəhlizi ilə bağlı müzakirələr aparılan zaman bu layihənin reallaşacağına çoxu ümid etmirdi. Layihənin xərclər smetası böyük idi, maliyyələşmə məsələləri vardı. Bütün bunlara baxmayaraq, Azərbaycanın dəstəyi hesabına region üçün ən böyük layihə gerçəkləşdi. Ümumiyyətlə, Azərbaycanın dəstəyi və təşəbbüsü olmasaydı, Cənub Qaz Dəhlizinin reallaşması mümkün deyildi. Layihə çərçivəsində Azərbaycan onunla müttəfiq olan ölkələrlə əlaqələrini daha da gücləndirdi. TANAP və Cənub Qaz Dəhlizi Azərbaycanın həyata keçirdiyi təşəbbüsdür. Region hələ uzun müddət dövlətimizin başçısının siyasi iradəsi nəticəsində reallaşmış bu təşəbbüsdən faydalana biləcək və öz enerji təhlükəsizliyini formalaşdırmış olacaq.

***Vüqar BAYRAMOV,***
***iqtisadçı ekspert***

Xalq qəzeti.- 2019.- 5 oktyarr. S. 11.